

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 127 (21.279)**

***1 iyul 2015-ci il, çərşənbə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## “Cənubi Qafqazda hüquq və məhkəmə islahatlarının dəstəklənməsi” proqramı çərçivəsində növbəti seminar

***İyunun 30-da Naxçıvan şəhərində Azərbaycan Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə təşkilatçılığı ilə “Azərbaycan inzibati prosesinin aktual problemləri (Naxçıvan Muxtar Respublikasında hüquqtətbiqetmə təcrübəsi nəzərə alınmaqla)” mövzusunda birgünlük seminar keçirilib.***



“Cənubi Qafqazda hüquq və məhkəmə islahatlarının dəstəklənməsi” proqramı çərçivəsində keçirilən seminarda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin hakimləri iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması istiqamətində ölkəmizdə həyata keçirilən genişmiqyaslı məhkəmə-hüquq islahatlarından söhbət açıb. Qeyd edib ki, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, məhkəmələrdə yeni informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi, eləcə də onların maddi-texniki bazasının daha da möhkəmləndirilməsi sahəsində ciddi addımlar atılıb.

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Azərbaycan üzrə layihə rəhbəri Tomas Herrmann seminarda müzakirə olunan mövzunun əhəmiyyətindən danışıb.

Seminarda Almaniyanın Baden-Vürttemberq Yuxarı İnzibati Məhkəməsinin sədri Folker Ellenberqer və həmin məhkəmənin hakimi Robert Kellerin “Azərbaycan inzibati prosesinin aktual problemləri: Alman baxışı”, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İlqar Dadaşovun “Azərbaycanda İnzibati Prosessual Məcəllənin tətbiqi ilə bağlı aşağı məhkəmələrin praktikasındakı problemlər”, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Yusifəli Qurbanovun “Naxçıvan Muxtar Respublikasının məhkəmələri tərəfindən Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin tətbiqi ilə bağlı aktual məsələlərin icmalı” mövzularında məruzələri dinlənilib.

Seminarda mövzu ətrafında maraqlı müzakirələr, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Seminar muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən milli qanunvericiliyin tətbiqi təcrübəsinin daha da sistemləşdirilməsi ilə yanaşı, mövzu ilə bağlı qarşılıqlı təcrübə mübadiləsinin aparılması baxımından da mühüm əhəmiyyətə malik olub.

Tədbirin sonunda Naxçıvan Muxtar Respublikası məhkəmə orqanlarının fəaliyyətinə uğurlar arzulayan Tomas Herrmann qarşılıqlı faydalı əməkdaşlığı gələcəkdə də davam etdirmək niyyətində olduqlarını bildirib.

Seminara Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov yekun vurub.

## Nağdsız ödənişlərin aparılmasında fəallıq göstərən vətəndaşlara hədiyyələr təqdim olunub



***İyunun 29-da Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin təşkilatçılığı ilə keçirilən “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı tədbirdə hədiyyə qazanmış vətəndaşlara hədiyyələr təqdim olunub.***

Bu münasibətlə keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası Vergilər nazirinin müavini, vergi xidməti müşaviri Nurlan Əliyev açaraq nağdsız ödənişlərin aparılması sahəsində görülən işlərdən danışıb. Bildirilib ki, vergi və alıcılıq mədəniyyətini yüksəldən amillərdən biri də nağdsız hesablaşmaların həyata keçirilməsidir. Bu cür hesablaşmalarda əsas vasitə rolunu oynayan POS-terminallardan səmərəli istifadənin təmin edilməsi və nağd pul dövriyyəsinin həcminin azaldılması məqsədilə tədbirlər görülməsi, habelə nağdsız əməliyyatların üstünlükləri haqqında maarifləndirici tədbirlərin həyata keçirilməsi hazırda davam etdirilməkdədir.

Nurlan Əliyev deyib ki, muxtar respublikada POS-terminalların quraşdırılmasına nəzarət gücləndirilib. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublika üzrə cari ilin ilk beş ayı ərzində nağdsız ödənişlərin həcmi 6 milyon 852 min manat olub. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 897 min manat çoxdur.

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Elvin Axundov çıxışında bildirib ki, 1 iyun 2015-ci il tarixə əsas ödəniş alətlərindən sayılan POS-terminalların sayı 479-u Naxçıvan şəhəri, 504-ü isə rayon mərkəzi və kənd yaşayış məntəqələrini əhatə etməklə 983 ədədə çatdırılıb. Eyni zamanda kommunal xidmət haqlarının POS-terminallar və internet üzərindən elektron ödəniş sistemləri vasitəsilə ödənilməsi imkanları yaradılıb. Nağdsız ödəniş infrastrukturunun tərkib hissələri olan bankomat və ödəniş kartlarının sayı da artırılıb. Belə ki, 1 iyun 2015-ci il tarixə bankomatların sayı 95 ədəd təşkil edib. Dövlət sektorunda əməkhaqlarının nağdsız üsullarla ödənilməsi istiqamətində işlər yekunlaşdırılıb. Nəticə etibarilə ödəniş kartlarının sayı muxtar respublika üzrə 212 min 214 ədədə çatdırılıb ki, bu da hər iki nəfərdən birinin ödəniş kartı ilə təmin edilməsi deməkdir. Əgər 2014-cü ilin yanvar ayında muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcmi 246 min manat təşkil edirdisə, bu göstərici dekabr ayında 1 milyon 780 min manat olub. Ümumilikdə, 2014-cü il ərzində muxtar respublika üzrə aparılmış nağdsız əməliyyatların həcmi 12 milyon 513 min manat təşkil edib. 2015-ci ilin ilk beş ayı ərzində isə bu göstərici 6 milyon 852 min manat olub. Halbuki bu göstərici 2014-cü ilin ilk beş ayı ərzində 2 milyon 955 min manat təşkil edirdi. Əminliklə demək olar ki, bundan sonra da vətəndaşlar bu işdə aktivlik nümayiş etdirəcəklər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə rəisi Rəşad Əliyev çıxış edərək deyib ki, vergi və bank orqanlarının iştirakı ilə yaradılmış komissiya tərəfindən “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin 3-cü tirajında hədiyyə qazanmış şəxslərin sayı muxtar respublikamızın bütün şəhər və rayonlarını əhatə etməklə 200 nəfər, Naxçıvan şəhəri üzrə isə 48 nəfər müəyyən edilib. Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin birgə apardığı maarifləndirmə işlərinin nəticəsidir ki, Naxçıvan şəhərində hədiyyə qazanmış şəxslərin 21 nəfəri təhsil və mədəniyyət işçisi, 9 nəfəri səhiyyə işçisi, 2 nəfəri hüquq-mühafizə orqanının işçisi, 7 nəfəri dövlət qulluğunda çalışan işçilər, 9 nəfəri müxtəlif təşkilatlarda çalışan texniki və xidməti işçilərdir.

Sonra hədiyyələr sahiblərinə təqdim olunub. Nağdsız əməliyyatlara üstünlük verən vətəndaşlar tədbirin təşkilatçılarına minnətdarlıqlarını bildiriblər.

* * *

Həmin gün Şahbuz rayonunda da bu mövzuda tədbir keçirilib. Tədbirdə vurğulanıb ki, “Nağdsız ödəyin, hədiyyə qazanın!” adlı həvəsləndirici tədbirin üçüncü tirajında Şahbuz rayonundan 18 nəfər hədiyyə qazanıb. Şahbuz rayonu üzrə hədiyyə qazanan şəxslərin 12 nəfəri təhsil və mədəniyyət işçisi, 4 nəfəri dövlət qulluqçusu, 2 nəfəri müxtəlif qurumlarda çalışan xidməti işçilərdir.

Sonda hədiyyələr nağdsız əməliyyatlara üstünlük verən rayon sakinlərinə təqdim edilib. Aktiv istifadəçilər belə tədbirlərin təşkilinə görə minnətdarlıq ediblər.

İyunun 30-da analoji tədbir Şərur, Kəngərli və Sədərək rayonlarında keçirilib. Şərur rayonunda 24, Kəngərli rayonunda 15, Sədərək rayonunda isə 10 nəfər olmaqla, cəmi 49 nəfər nağdsız əməliyyatlara üstünlük verən vətəndaşa hədiyyələr təqdim edilib.

## Babək rayonunda quruculuq işləri davam etdirilir

***Muxtar respublikada əhalinin və nəqliyyatın təhlükəsizliyini və intensiv hərəkətini təmin edən yol tikintisi üstün istiqamət verilən sahələrdən biridir.***

Hər il bu istiqamətlərdə həyata keçirilən tədbirlər region ərazisindəki yolların müasir standartlara cavab verməsini təmin edir.



Babək rayonu da bu cəhətdən istisna deyil. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” 2013-cü il 5 mart tarixli Sərəncamına uyğun olaraq, rayonda 8 min nəfər sakinin yaşadığı 13 kənd yaşayış məntəqəsini əhatə edən və ümumi uzunluğu 26 kilometr olan Hacıvar-Vayxır-Sirab avtomobil yolunun istifadəyə verilməsini həmin yoldan istifadə edənlər onlara göstərilən dövlət qayğısı kimi dəyərləndirirlər.

Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2014-cü il tarixli “Naxçıvan Muxtar Respublikasının Babək rayonunda Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında” Sərəncamına uyğun olaraq, adıçəkilən marşrutlar üzrə avtomobil yolunun yenidən qurulması bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi diqqəti çəkir. Bu məqsədlə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 5 milyon manat ayrılıb. Yol tikintisi “Gəmiqaya Yol, Su, Enerji” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır. Yenidən qurulan yol otuz bir min nəfər sakinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir.

Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun uzunluğu 35 kilometrdir. İlk olaraq yolun genişləndirilməsi həyata keçirilib. Torpaqbərkitmə işləri aparılıb, ehtiyac duyulan yerlərdə su keçidləri qoyulub. Yol kənarlarındakı kanallar və su arxları qaydaya salınıb. Hazırda inşaatçılar dairəvi yolun ayrı-ayrı hissələrinə asfalt salınması ilə məşğuldurlar.

* * *

***Babək rayonunda quruculuq tədbirlərinin davamı olaraq, rayonun Yarımca kəndində yeni obyektlər – kənd mərkəzi, həkim ambulatoriyası və xidmət mərkəzi tikilir.***

İş icraçısı Mahir Quliyevin bildirdiyinə görə, obyektlərdə inşaat işlərinə bu ilin aprel ayından başlanılıb. Həkim ambulatoriyası iki mərtəbədən ibarət olacaq. Hər iki mərtəbədə hörgü işləri başa çatdırılıb. Hazırda binanın çardaq hissəsi qurulur.

Həkim ambulatoriyası ilə paralel inşası aparılan kənd mərkəzinin binası 3 mərtəbəli olacaq. Hazırda üçüncü mərtəbədə hörgü işləri aparılır.

Kənddə inşasına başlanılan xidmət mərkəzinin binasında da tikinti işləri davam etdirilir.

Babək rayonunun daha bir yaşayış məntəqəsində – Xəlilli kəndində yeni məktəb binasının inşası da sürətlə aparılır. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət təhsil ocağının binasında 12 sinif otağı, 6 kabinə olacaq. 144 yerlik məktəb binasında hörgü işləri başa çatdırılıb. Hazırda binanın daxilində təmir işləri aparılır. Kənddə inşası aparılan daha bir obyekt isə kənd mərkəzi üçün nəzərdə tutulub. Bu bina iki mərtəbədən ibarətdir. Binanın tikintisi başa çatdırılıb, suvaq işlərinə başlanılıb.

İş icraçısı Əliağa Piriyevlə söhbətimizdə bildirdi ki, burada da tikinti işlərinə aprel ayının əvvəllərindən başlanılıb.

Məlumat üçün bildirək ki, hər iki kənddəki tikinti işlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsi aparır.

**Xəbərlər şöbəsi**

# Heydər Əliyev adına Hərbi Liseyin

## məzunları öz nizam-intizamları, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər



**Ulu öndər Heydər ƏLİYEV:** ***Azərbaycan ilə onun ayrılmaz hissəsi olan Naxçıvan arasında coğrafi nöqteyi-nəzərdən müəyyən çətinliklər yaranıbdır. Bu çətinliklər Naxçıvan Muxtar Respublikasında əlavə tədbirlər görməyimizi tələb edirdi. Bütün bunları nəzərə alaraq, biz burada Cəmşid Naxçıvanski adına Hərbi Liseyin filialını yaratdıq. İnanıram ki, Naxçıvan filialı qısa bir zamanda burada yeni bir Hərbi Liseyin yaranması üçün əsas qoyubdur.***

***Hər bir ölkə üçün ordu quruculuğu prosesində milli hərbi kadrların hazırlanması mühüm əhəmiyyətə malik sahə kimi daim prioritet təşkil edir. Müstəqil Azərbaycan Respublikasında bu sahəyə xüsusi diqqət yetirilir, Vətənə, dövlətə, dövlətçiliyə sədaqətli, yüksək mənəvi-psixoloji hazırlığa malik peşəkar hərbçi kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin timsalında bunu daha aydın görmək mümkündür.***

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** ***Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar.***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV:** ***Ulu öndərin müəyyənləşdirdiyi ordu quruculuğu strategiyası bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Muxtar respublikada yerləşən ordu, hərbi hissə və birləşmələrin döyüş hazırlığı, şəxsi heyətin xidmət şəraiti ilbəil yaxşılaşdırılır. Heydər Əliyev adına Hərbi Liseyin yaranması və keçdiyi inkişaf yolu da bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir.***

Lisey hərbi kadr hazırlığı sistemini daha da təkmilləşdirmək və milli ordunun peşəkar kadrlara olan tələbatını ödəmək məqsədilə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2004-cü il fevralın 27-də imzaladığı Sərəncama əsasən, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında formalaşdırılıb. Bu əlamətdar hadisə ilə əlaqədar həmin il fevralın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyə gələrək bu tarixi hadisə münasibətilə lisey kollektivini təbrik edib, kursantlara, müəllim-zabit heyətinə ulu öndərin adına layiq oxumağı, işləməyi, Vətənə və xalqa xidmət etməyi tövsiyə edib, kollektivə yeni-yeni uğurlar arzulayıb.

Dövlət başçısının diqqət və qayğısı ilə Heydər Əliyev adına Hərbi Lisey qısa zamanda böyük inkişaf yolu keçib, burada nümunəvi hərbi tədris şəhərciyi yaradılıb, kursantların təhsili, sağlamlığı və fiziki tərbiyəsi üçün lazım olan bütün tədbirlər görülüb. Hərbi Lisey ötən dövrdə tədris və tərbiyə sahəsində mühüm nailiyyətlər əldə edib. Bu gün fəxrlə deyə bilərik ki, təhsil ocağı qısa zaman ərzində Azərbaycan, hətta Cənubi Qafqaz regionu səviyyəsində çox böyük uğurlara imza atıb. Ötən dövrdə Hərbi Liseyin məzunlarından 15 nəfər Rusiya Federasiyasının, 8 nəfər Türkiyə Respublikasının ali hərbi məktəblərində, Hərbi Liseyə qəbul olunan kursantlardan 12 nəfəri isə Türkiyənin hərbi liseylərində təhsillərini müvəffəqiyyətlə davam etdiriblər. Liseyi bitirən onlarla kursant ölkəmizin müxtəlif xüsusi təyinatlı ali məktəblərində təhsil alıb.

Təhsil ocağının kursantları muxtar respublikada keçirilən fənn olimpiadaları və idman yarışlarında fəal iştirak edərək yüksək nəticələr əldə edirlər. Azərbaycan Prezidentinin 2009-cu il sentyabrın 1-də imzaladığı Sərəncama əsasən, 2008-2009-cu tədris ilində keçirilmiş "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində Heydər Əliyev adına Hərbi Lisey müvəffəqiyyət qazanıb. Bu gün burada yüzdən çox müəllim, hərbi rəhbər-tərbiyəçi və zabit vətənpərvər, yüksək təhsilli, fiziki cəhətdən sağlam və intizamlı gənclərin yetişdirilməsi üçün səylərini əsirgəmirlər. Liseydə kursantların yaradıcılığını və fənlərə olan marağını artırmaq məqsədilə 19 dərnək fəaliyyət göstərir. Yaradılan şərait gənclərin hərb sənətinə marağını xeyli artırıb. Təsadüfi deyil ki, 2015-2016-cı tədris ilində Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmaq üçün 977 gənc sənəd verib, onlardan 603-ü qəbul imtahanlarında iştirak etmək hüququ qazanıb. Kursantların mənəvi tərbiyəsini yüksəltmək məqsədilə Naxçıvan Dövlət Musiqili Dram Teatrı, 8 muzey və 2 kitabxana ilə müqavilə bağlanaraq onların imkanlarından da geniş istifadə olunur. Bütün bunlar xüsusi hazırlığa malik peşəkar hərbi kadrların hazırlanması istiqamətində görülən məqsədyönlü işlərin tərkib hissəsidir.





İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının 2015-ci il buraxılışı münasibətilə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: *"Ulu öndərin müəyyənləşdirdiyi ordu quruculuğu strategiyası bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Muxtar respublikada yerləşən ordu, hərbi hissə və birləşmələrin döyüş hazırlığı, şəxsi heyətin xidmət şəraiti ilbəil yaxşılaşdırılır. Heydər Əliyev adına Hərbi Liseyin yaranması və keçdiyi inkişaf yolu da bu sahədə görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyətə malikdir. Ötən dövrdə ölkə Prezidentinin diqqət və qayğısı ilə Hərbi Lisey mühüm təşkilatlanma və inkişaf yolu keçib, burada nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılıb. 56 kursantla fəaliyyətə başlayan lisey bu gün gəncləri öz ətrafında birləşdirən mötəbər hərbi tədris müəssisəsidir. Hazırda liseydə 657 kursant təhsil alır. Ötən dövrdə Hərbi Liseyi bitirən kursantlardan 2072-si ali hərbi məktəblərə qəbul olunub. Liseyin minə yaxın məzunu Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmətlərini davam etdirir.*

*Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki,* ***"Hərbi peşə insandan həm fiziki hazırlıq, həm nizam-intizam, həm dövlətə, vətənə, ölkəyə, doğma torpağa sədaqət, həm də böyük cəfakeşlik, zəhmətsevərlik, mərdlik, qəhrəmanlıq, mətinlik tələb edir".*** *Bu gün Heydər Əliyev adına Hərbi Liseyin kursantlarına baxarkən vətənpərvər, dövlətinə və xalqına sədaqətli, mərd və cəsur Azərbaycan gəncliyini görür, gələcəyimiz olan bu gəncliklə qürur hissi keçiririk".*

Hərbi Lisey müasir təlim və tədris vasitələri ilə təmin olunub. Burada təlim və tədris prosesi gündən-günə təkmilləşir və inkişaf edir, kursantların bilik səviyyəsi artır. Liseydə tədris müasir tələblərə cavab verir. Təhsil ocağında əsaslı təmir işləri aparılıb, kursant yataqxanası və tədris korpusu müasir tələblər səviyyəsində qurulub. Yataqxana binasında kursantlar üçün müasir məişət şəraiti yaradılıb, yeni yataq dəstləri qoyulub. Burada kursantların asudə vaxtının səmərəli təşkili də təmin edilib, istirahət zalında təbiət və idman guşələri yaradılıb. Kursantlar gündəlik mətbuatı izləmək, şahmat və digər idman növləri ilə məşğul olmaq imkanlarına malikdirlər.

Hərbi dərslərin mütəşəkkil keçilməsi üçün liseydə istifadə olunan əyani tədris vasitələri də diqqəti cəlb edir. Liseyin qərargah binasında yerləşən atəş hazırlığı sinfi və hərbi kabinə bu baxımdan mühüm əhəmiyyətə malikdir. Burada müasir avadanlıqlar, kompüter dəstləri və iki atış monitoru quraşdırılıb. Monitorlarda real şəraitə uyğun olaraq hədəflərin yaxın və uzaqlığını, müxtəlif hava, məhdud görmə və relyef şəraitini, eləcə də avtomatik və tək-tək atəş rejimini seçmək mümkündür. Atış başa çatdıqdan sonra nəticələr monitorda əks olunur və kursantların nişanalma bacarıqları haqqında məlumat verilir. Bunlar, öz növbəsində, keçilən dərslərin dərindən mənimsənilməsinə, qazanılan biliklərin möhkəmləndirilməsinə və kursantlarda ilkin peşə vərdişlərinin formalaşmasına kömək edir.

Təhsil prosesi daim yeniləşməyi, müasir dövrün tələblərinə cavab verməyi tələb edən strateji sahələrdən biridir. Sevindirici haldır ki, Heydər Əliyev adına Hərbi Liseydə də tədrisin keyfiyyətini daha da artırmaq üçün ardıcıl tədbirlər görülür. Binadakı sinif otaqları müasir avadanlıqlarla təmin edilib, ana dili kabinəsi, kimya, biologiya və fizika laboratoriyaları, kompüterlər quraşdırılan xarici dil kabinələri, idman zalı, elmi, bədii, hərbi və tarixi ədəbiyyatlarla təmin olunmuş zəngin kitabxana kursantların istifadəsinə verilib. Hazırda kitabxana fondunda 17 mindən artıq ədəbiyyat və dərslik var. Hərbi Liseydə dərslərin interaktiv formada keçilməsi də diqqət mərkəzində saxlanılıb, fənn kabinələrində və sinif otaqlarında 8 elektron lövhə quraşdırılıb, humanitar və dəqiq elmlər üzrə elektron dərslik bazası yaradılıb.

Müəllim peşəsi müqəddəsdir. Çünki müəllimlər bir millətin gələcəyini təyin edəcək bilikli, vətənpərvər gənclərin yetişdirilməsində, milli inkişaf strategiyamızın əsas tərkib hissəsi olan kadr potensialının formalaşmasında yaxından iştirak edirlər. Milli hərbi kadrların hazırlanmasında da müəllimlərin rolu əvəzsizdir. Bu, Vətən, millət, dövlət naminə görülən ən şərəfli işlərdən biridir. Heydər Əliyev adına Hərbi Liseyin müəllimləri ilə görüşən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu məsələyə diqqət çəkərək deyib: ***"Heydər Əliyev adına Hərbi Liseydə dərs demək böyük şərəf və bir o qədər də məsuliyyətdir. Çünki siz ölkəmizin gələcək müdafiəçilərini hazırlayırsınız. Yaradılan şərait, o cümlədən liseydə vətənpərvər kursantların təhsil alması pedaqoji heyətin üzərinə mühüm vəzifələr qoyur. Liseyin müəllimləri bundan sonra da kursantların təhsilinə, nizam-intizamına, fiziki hazırlıqlarının artırılmasına diqqət yetirməli, müəllim-kursant münasibətlərində fərdi yanaşma üstün istiqamət kimi götürülməlidir. Bu gün istər ali hərbi məktəblərdə təhsil alan, istərsə də Azərbaycan Silahlı Qüvvələrində xidmətlərini davam etdirən liseyin məzunları öz nizam-intizamları, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər".***

***Bunun əsas səbəbi həm də odur ki, bu gün Azərbaycan dövləti Heydər Əliyev adına Hərbi Liseydə hərbi təhsil sisteminin daha da təkmilləşdirilməsi istiqamətində zəruri olan bütün tədbirləri çox yüksək səviyyədə həyata keçirir, burada ordumuz üçün nizam-intizamlı, vətənpərvər kadrların hazırlanması naminə hər cür şərait yaradır. Bunun nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Lisey Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ixtisaslı və peşəkar kadr təminatı istiqamətində fəaliyyətini uğurla davam etdirir.***

**Rauf ƏLİYEV**

*Axtarışlar, tapıntılar*

## Qızqalada aparılan arxeoloji tədqiqatlar Cənubi Qafqaz və Yaxın Şərq tarixinin bir sıra qaranlıq məqamlarına aydınlıq gətirir

*Ulu öndər Heydər Əliyev çıxışlarının birində deyib: **“Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi barədə çox az iş görülübdür”.***



Bu gün muxtar respublika ərazisində aparılan tədqiqatlar, əldə olunan elmi nəticələr, mühüm elmi nəşrlərin hazırlanması ulu öndərin arzularının gerçəkləşməsi, Naxçıvanın qədim tarixinin öyrənilməsi sahəsində qarşıya qoyduğu vəzifələrin uğurla yerinə yetirilməsinin göstəricisidir. Həyata keçirilən tədbirlər sırasında Naxçıvanda Azərbaycan-ABŞ arxeoloji ekspedisiyasının birgə fəaliyyətini xüsusilə qeyd etmək lazımdır. 2006-cı ildən muxtar respublikamızda müxtəlif ərazilərdə arxeoloji qazıntılar aparan ekspedisiya tərəfindən Naxçıvanın Tunc və Dəmir dövrlərinə aid abidələri araşdırılıb, II Kültəpə və Maxta Kültəpəsində arxeoloji qazıntılar aparılıb. ABŞ arxeoloqları AMEA Naxçıvan Bölməsinin əməkdaşları ilə birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən, Naxçıvanda, xüsusilə Arpaçay vadisində olan tarix və mədəniyyət abidələrinin qeydə alınması və pasportlaşdırılması prosesində də iştirak ediblər. Azərbaycan və ABŞ tədqiqatçıları başlıca olaraq Şərur, Sədərək və Kəngərli rayonlarının ərazisində tədqiqat aparırlar. Tədqiqatların əsas məqsədi mövcud olan abidələrin xəritələşdirilməsi və elmə məlum olmayan yeni abidələrin qeydə alınmasıdır. Tədqiqatların nəticələri Naxçıvanın vadilərində və dağlıq ərazilərində yerləşən abidələri arasındakı əlaqələri, həmçinin Cənubi Qafqaz və Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələri müəyyənləşdirməyə imkan verir.

Azərbaycan-ABŞ arxeoloqlarının Qızqala yaşayış yerində tədqiqat işləri ilə tanış olmaq üçün arxeoloji qazıntıların aparıldığı əraziyə üz tutduq. Qeyd edim ki, bu yaşayış yeri elə Azərbaycan-ABŞ arxeoloqlarının apardıqları tədqiqatlar zamanı aşkar olunub. AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev bildirdi ki, burada 13 hektar sahəni əhatə edən Orta Tunc dövrü yaşayış yeri aşkar edilib. Builki araşdırmalar 300 kvadratmetrdən artıq bir ərazidə və Orta Tunc dövrünə aid kurqanlarda aparılmaqdadır.

“Ekspedisiyanın tədqiq etdiyi abidənin Cənubi Qafqaz və Yaxın Şərq arxeologiyası üçün böyük əhəmiyyəti vardır”, – deyən AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev əlavə edir ki, Azərbaycan, Gürcüstan, İran və Şərqi Anadoluda yayılmış Orta Tunc dövrünün boyalı qablar mədəniyyətinə aid əsas yaşayış yerləri Naxçıvan ərazisindədir. Son illər Qızqala yaşayış yeri ətrafında aparılan araşdırmalar zamanı boyalı qablar mədəniyyətinin Naxçıvanla bağlı olmasına aid xeyli yeni faktlar aşkar olunub. Belə faktlardan biri də Qızqala yaşayış yerində zəngin mədəni təbəqənin olması və bu mədəni təbəqədən monoxrom və polixrom boyalı qabların aşkar edilməsidir. Builki tədqiqatlar zamanı həndəsi ornament və heyvan rəsmləri ilə bəzədilmiş boyalı qabların aşkar olunması Naxçıvanın boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu, Cənubi Qafqaza boyalı qabların məhz Naxçıvandan yayıldığını təsdiq edir.

Qeyd edək ki, bu il Qızqalada arxeoloji qazıntılara iyunun 19-dan start verilib. İndiyə qədər aşkar olunan maddi-mədəniyyət nümunələrinin ilkin tədqiqi Qızqala yaşayış yerində məskunlaşan qədim tayfaların oturaq və yarımköçəri həyat tərzini mənimsədiyini təsdiq edir. Yaşayış yerində Orta Tunc dövrü təbəqəsinin orta əsr təbəqəsi altında qalması araşdırma üçün müəyyən çətinlik törətsə də, artıq böyük bir sahədə Orta Tunc dövrü təbəqəsi və həmin dövrə aid yaşayış binalarının qalıqları aşkara çıxarılıb. Tədqiqatların nəticələri burada məskunlaşan insanların Arpaçay vadisi boyunca yüksək dağlıq ərazilərə köç etdiyini və geri qayıtdığını təsdiq edir. Araşdırmaların davam etdirilməsi nəticəsində bu dövrdə Arpaçay vadisində yaşayan insanların həyat tərzi və mədəni əlaqələri, həmçinin boyalı qablar mədəniyyətinin mənşəyi və mədəni mənsubiyyəti ilə bağlı xeyli yeni faktların aşkar olunacağı gözlənilir.

Bəs ABŞ tədqiqatçıları nəticələri necə qiymətləndirirlər? Nəticələr onlar üçün də olduqca maraqlıdır.

ABŞ-ın Emori Universitetinin professoru Hillari Qopnik bildirdi ki, indiyədək boyalı qablar mədəniyyətinə məxsus insanların harada yaşaması ilə bağlı aydın təsəvvür yox idi. Bəzən isə sovet dövründə aparılan tədqiqatlara şübhə ilə yanaşırdılar. Lakin bizim iştirakımızla boyalı qablar mədəniyyətinə aid yeni abidələrin aşkar olunması, xüsusilə Qızqala yaşayış yerində qalın mədəni təbəqənin üzə çıxarılması çox sevindiricidir. Artıq boyalı qablar mədəniyyətini yaradan tayfaların məhz bu ərazidə yaşadığı təsdiq edildi və biz bu barədə beynəlxalq konfranslarda məruzələr edəcəyik.

Göründüyü kimi, Qızqalada aparılan tədqiqat işlərində müasir tariximiz üçün qiymətli faktlar aşkarlanıb və bu, son deyil. Aşkarlanan və bundan sonra aşkarlanacaq yeni məlumatlar Azərbaycan tarix elminə dəyərli töhfələr verib və verəcək. Əldə edilən ilkin məlumatlar Naxçıvanın qədim və əzəli Azərbaycan torpağı olduğunu bir daha sübuta yetirib. Bu isə düşmən Ermənistanın Naxçıvana qarşı haqsız ərazi iddialarına ən tutarlı cavabdır.

✍ **Sara ƏZİMOVA**

## Komitədə növbəti kurs təşkil olunub

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin də qarşısında bir sıra vəzifələr qoyub. Komitə aidiyyəti təşkilatlarla birgə məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilərin peşəkarlıq səviyyələrinin artırılması məqsədilə rübdə bir dəfə kurslar təşkil edir.

Komitədə təşkil olunan növbəti tədbiri şöbə müdiri Rəşad Kərimov açıb.

Naxçıvan Müəllimlər İnstitutunun Psixoloji xidmət bölməsinin rəhbəri Mənsim Tarverdiyev çıxış edərək bildirib ki, nitq qüsuru olan uşaqlar həmyaşıdları ilə ünsiyyətdə, uşaq bağçasında, məktəbdə müxtəlif problemlərlə üzləşir ki, bu da onların davranışına, xasiyyətinə mənfi təsir edir. Belə uşaqların bir hissəsi digər uşaqlarla ünsiyyətdən çəkinir, tək qalmağı xoşlayır, qapalı böyüyür. Məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkilinə məsul işçilər bu məsələlərə xüsusi diqqət etməli, belə uşaqları daim nəzarətdə saxlamalı, onların cəmiyyətə inteqrasiyası üçün digər uşaqlarla daha çox ünsiyyət qurmalarını təmin etməlidirlər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, onlara mövzu ilə bağlı elektron material paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Təbii sərvətlərimiz*

## Darıdağ Arsenli Su Müalicəxanasına müraciət edənlərin sayı ilbəil artır

### *Bu, müalicəxanada yaradılan yüksək şəraitin nəticəsidir*



**Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə müalicəvi suların olduğu yerlərdə səhiyyə ocaqlarının, sanatoriyaların tikilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Lakin ötən əsrin 90-cı illərinin əvvəllərində belə səhiyyə müəssisələrinin də fəaliyyəti dayandırılmışdı. Ulu öndərimizin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf təbii üsullarla müalicə məqsədilə inşa olunmuş səhiyyə ocaqlarının da yenidən qurulmasına geniş imkanlar açıb.**

Ölkəmizin ayrı-ayrı regionlarında olduğu kimi, muxtar respublikamızda da bu istiqamətdə kompleks tədbirlər həyata keçirilib, yeni səhiyyə ocaqları ilə yanaşı, təbii üsulla müalicə məqsədilə yaradılmış Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası yenidən qurularaq istifadəyə verilib.

“Mineral suların təbii muzeyi” adlandırılan Naxçıvanda 200-dən artıq mineral və müalicəvi su mənbəyi vardır ki, onlardan bir çoxu tərkibinə görə nadir sulardan hesab olunur. Böyük debitə malik olan yeraltı sərvətlərdən biri də Darıdağ arsenli mineral suyudur. Culfa şəhərindən 8-9 kilometr şimal-şərqdə, Darıdağın sıldırım yamacları arasında, dəniz səviyyəsindən 800-900 metr hündürlükdə yerləşən Şorsu dərəsində “Şəfa bulağı” adlanan əraziyə yaxınlaşdıqda quruculuq ərməğanlarının təbiət mənzərələri ilə həmahənglik təşkil etdiyi ecazkar bir mənzərə ilə qarşılaşırsan. Naxçıvan-Ordubad magistralından müalicəxanayadək olan avtomobil yolu asfalt-beton örtük salınmaqla yenidən qurulub, burada yeni bina tikilib, müalicə olunanların istirahəti üçün hərtərəfli şərait yaradılıb.

Darıdağ Arsenli Su Müalicəxanasının direktoru Zəfər Məmmədov bizimlə söhbətində bildirdi ki, 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan arsenli su bir çox xəstəliklərin sağalmasında mühüm rola malikdir. Darıdağ arsenli suyunun araşdırılması hələ 1830-cu ildə Q.Boskoboynikov, 1868-ci ildə Arxilov və Sulkidze tərəfindən aparılıb, 1928-ci ildə isə Lanqvaqren bu suyun geoloji kəşfi ilə yanaşı, kimyəvi tərkibini də öyrənib. Sonralar da Darıdağ suyunun kimyəvi, fiziki, balneoloji, müalicəvi və başqa xüsusiyyətləri Azərbaycan Elmi-Tədqiqat və Fiziki-Təbii Amillərlə Müalicə İnstitutunun, Azərbaycan Dövlət Tibb Universitetinin, Azərbaycan Milli Elmlər Akademiyasının Təbii Amillərlə Müalicə Bölməsinin əməkdaşlarından akademik M.Qaşqay, A.Qarayev, professor Ə.Əsgərov, M.Əfəndiyev, Ş.Həsənov və başqaları tərəfindən ətraflı öyrənilib. Son dövrlərdə isə professor Ə.Musayev öz təcrübələrində aşkar edib ki, Darıdağ arsenli isti suyunda müalicə olunan xəstələr üçün müəyyən edilmiş bir seansın müddəti 10-12 dəqiqədən artıq olmamalıdır. Əks halda, ürək qan damarlarının genişlənməsi baş verər. Darıdağ suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur: Kudova (Polşa), Dürkgeym (Almaniya), Sineqorsk (Saxalin) sularının analoqudur. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan üstündür.

İnsan orqanizmində elə bir toxuma, üzv və sistem yoxdur ki, bu su ona müalicəvi təsir göstərməklə onun iş qabiliyyətinin bərpasına səbəb olmasın. Darıdağ suyu qanyaradıcı xüsusiyyətə malik olub, qan dövranı üzvlərinin fəaliyyətinə müsbət təsir edərək periferik qanın morfoloji tərkibini yaxşılaşdırır – leykositlərin faqositoz qabiliyyətini artırır, qanazlığını aradan qaldırır. Daxili ifrazat sistemini fəallaşdırır, vegetativ sinir fəaliyyətini gücləndirməklə mədə, qaraciyər, böyrək və ürək əzələsində mübadiləni sürətləndirərək onların funksional vəziyyətini normallaşdırır. Bu xüsusiyyətlərinə görə Darıdağ suyu mədə, öd kisəsi, qaraciyər və vegetativ sinir sistemi ilə əlaqəli başqa xəstəliklərin müalicəsində geniş tətbiq edilir. Darıdağ suyunun maddələr mübadiləsinə təsirini öyrənən bir çox alimlər onun mübadilə pozğunluğundan yaranan artritlərə müalicəvi təsirini sübuta yetiriblər. Suyun təsirindən yaraların çirkdən tez təmizlənməsini, çətin sağalan yaraların qısa müddətə, həm də çapıqsız sağalmasını həkimlər onun antiseptik, faqositor və bakterisid qabiliyyəti ilə əlaqələndirirlər. Müəyyən edilib ki, mərgümüşün litium, brom, maqnezium, radioaktiv elementlər və başqa əhəmiyyətli maddələrlə müştərək təsiri maddələr mübadiləsinin bərpasına, periferik sinir sisteminin fəallaşmasına müsbət təsir göstərir.

Darıdağ suyundan hələ qədim zamanlardan kustar şəkildə sümük-oynaq, əzələ sistemi xəstəliklərində, o cümlədən “duzlaşma” adlanan patologiyalar və onun müxtəlif fəsadlarında geniş istifadə edildiyini bildirən müəssisə direktoru onu da qeyd etdi ki, 1978-ci ildən fəaliyyətə başlayan Darıdağ Arsenli Su Müalicəxanası 2005-ci ildə müasir tələblərə uyğun yenidən qurularaq istifadəyə verilib. Həkim, müayinə otaqları və qapalı hovuzlardan ibarət olan müalicəxanada xəstələrin müayinəsi, müalicəsi və istirahəti üçün hərtərəfli şərait yaradılıb. Həkim və müayinə otaqları yeni mebel dəstləri ilə təchiz edilib, hovuzlarda döşəməyə mərmər plitələr düzülüb, havalandırma və işıqlandırma sistemləri quraşdırılıb. Müalicəxanada sanitar-gigiyenik qaydalara ciddi əməl olunur, hovuzların vaxtında təmizlənməsi diqqət mərkəzində saxlanılır. 1080 metr dərinlikdən çıxan 5 nömrəli bulaqdan arsenli su borular vasitəsilə qadın və kişilər üçün ayrı-ayrı qapalı hovuzlara nəql edilir. Bulağın gözündə suyun hərarəti 52 dərəcə, vannalarda isə 37-41 dərəcə olur. Burada arsenli su vannası qəbul etməklə revmatik, dəri, əzələ, sinir və dayaq-hərəkət sistemləri xəstəliklərinin ambulator müalicəsi aparılır. Müalicə müddəti gündə 10-12 dəqiqə olmaqla, 12-14 gündür. Darıdağ suyunun müvafiq qaydalara uyğun şəraitdə qablaşdırılmış və qurudulmuş formaları öz kimyəvi sabitliyini (tərkibini) saxladığı üçün mənbədənkənar müalicə müəssisələrində, hətta ev şəraitində də istifadəsinin mümkünlüyü onun dəyərini daha da artırır.

Bu tibb ocağında müalicə olunan insanlarla da həmsöhbət olduq. Bakı şəhər sakini Dilbazi Əliyev aşağı ətraflarda şiş, dəridə ləkə, ağız boşluğunda diş ətinin qanaxmasından əziyyət çəkdiyini və ikinci ildir ki, bu müalicəxananın xidmətlərindən istifadə etdiyini, müalicənin yaxşı da nəticə verdiyini bildirdi. Sumqayıt şəhər sakini Təhminə Fərzəliyeva isə dedi ki, oynaq ağrıları ilə əlaqədar birinci dəfədir, buraya gəlir. Üçüncü gündür, vanna qəbul edir. İlkin nəticələrə görə, səhhətində olan problemlərin tezliklə aradan qalxacağına inanır. Söhbətimizə qoşulan digər müalicə olunanlar da yaradılan şəraitə, göstərilən qayğıya görə minnətdarlıqlarını bildirdilər.

Onu da qeyd edək ki, müalicəxananın xidmətlərindən təkcə ölkə vətəndaşları deyil, xarici ölkələrdən gələnlər də istifadə edirlər. Cari ilin ötən dövründə, ümumilikdə, 695 nəfər müalicəxanaya müraciət edib ki, bunun da 500 nəfəri muxtar respublika sakini, 150 nəfəri Bakı şəhərindən və ölkəmizin digər regionlarından, 45 nəfəri isə Türkiyə, İran, Rusiya, Ukrayna və Gürcüstan respublikalarından gələn xəstələrdir. Müalicəxanaya müraciət edənlərin sayı ildən-ilə artır. Bu məqsədlə müalicəxanada daxili imkanlar hesabına hər il cari təmir işləri aparılır, tibb ocağının ərazisində abadlıq işləri görülür, müxtəlif meyvə tingləri əkilir, buraya müraciət edənlərin daha yaxşı müalicəsi və istirahəti üçün hər cür şərait yaradılır.

✍ **Kərəm HƏSƏNOV**

## Muxtar respublika xalq teatrlarının festivalı başa çatıb

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Sərəncamına uyğun olaraq keçirilən xalq teatrlarının festivalı başa çatıb.*







Festivalın son günü Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Şahbuz Rayon Xalq Teatrı böyük bəstəkar və dramaturqumuz Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyasını göstərib.

Qeyd edək ki, Şahbuz Rayon Xalq Teatrı 2011-ci ildə yaradılıb. Bu teatrı fərqləndirən əsas xüsusiyyətlərdən biri daha çox musiqili komediyalara müraciət etməsidir. Kollektivin ötən dövr ərzində hazırladığı "Ər və arvad", "Beş manatlıq gəlin", "Evliykən subay", "O olmasın, bu olsun" tamaşaları ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb.

"O olmasın, bu olsun" komediyası çox sadə süjetli, hər bir azərbaycanlının dönə-dönə baxdığı və hər dəfə baxanda gülüş doğuran nikbin və şən tamaşa kimi sevilir. Tamaşanın rejissoru Ramiz Cəlilov, tərtibatçı rəssamı Səbuhi Tarverdiyev, musiqi tərtibatçısı Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Çingiz Haqverdiyevdir.

Musiqili komediyanın baş qəhrəmanı Məşədi İbad azərbaycanlı tamaşaçı üçün o qədər məşhurdur ki, onun adı gələndə hamının dodağı qaçır. Həm də bu obraz komediyanın bütün personajları ilə münasibətdədir. Onun düşüncəsi, hərəkəti, rəftarı, fikri, danışığı daim gülüş doğurur. Bu surəti Gündüz Kəlbili pula həris, cavan qızla evlənməyi özünə ar bilməyən bədii tip səviyyəsində təqdim etməyi bacarmışdır.

Musiqili komediyanın başqa tipləri – Rüstəm bəy (İsa Qələndərov), Həsənqulu bəy (Nihad Hüseynov), Qəzetçi Rza bəy (Şahin Orucov), Qoçu Əsgər (Namiq Qəmbərov), Məşədi İbadı ifşa etsələr də, onu gülünc vəziyyətə salsalar da, əslində, özləri də gülüş hədəfidirlər.

Məşədi İbadı rüsvay edən Hambalın (Səlim Bayramov) halına acısaq da, gülürük. Dahiliyin sadəliyini, sadəliyin dahiliyini göstərən bu ölməz musiqili komediya xalq teatrının ifasında rəğbətlə qarşılandı. Dəfələrlə səhnəyə qoyulan, kinofilmə çəkilən bu musiqili komediyanın peşəkar olmayan aktyorlar tərəfindən səhnə təcəssümü cəsarətli yaradıcılıq addımı hesab edilməlidir.

Sonra Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm nazirinin müavini, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova çıxış edərək bildirdi ki, bu gün muxtar respublikamızın müxtəlif bölgələrində xalq teatrlarının fəaliyyət göstərməsi və uğurlu tamaşalarla çıxış etməsi Naxçıvanda mədəni həyatımıza göstərilən diqqət və qayğının nəticəsidir. Xalq teatrlarının və dram dərnəklərinin işinin daha da səmərəli təşkilində, özfəaliyyət kollektivlərinə istedadlı gənclərin cəlb edilməsində, onların yaradıcılıq qabiliyyətinin üzə çıxarılmasında belə festivalların keçirilməsi böyük əhəmiyyət kəsb edir. 10 gündən çox davam edən festival bu kollektivlərdə maraqlı həvəskar aktyorların olduğunu göstərdi. İnanırıq ki, xalq teatrlarının kollektivləri gələcəkdə daha zəngin, rəngarəng və maraqlı tamaşalarla çıxış edəcəklər.

Natəvan Qədimova kollektivlərə professional səhnəyə gedən yolda uğurlar arzuladı.

Şərur Rayon Xalq Teatrının rejissoru Nəsimi Məmmədzadə festivalın təşkilatçılarına, onun keçirilməsinə şərait yaradanlara minnətdarlıq etdi.

Festivalda Babək Rayon Xalq Teatrı birinci, Şərur Rayon Xalq Teatrı ikinci, Şahbuz Rayon Xalq Teatrı üçüncü yerə layiq görülüb. Qaliblərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun pul mükafatları, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplomları təqdim olunub.

**Əli RZAYEV**

## "Ailə sağlamlıq məktəbi"nin növbəti məşğələsi

*Uşaqlara göstərilən tibbi xidmətin yaxşılaşdırılması, hamilə qadınların və uşaqların patronaj xidmətinin gücləndirilməsi, yenidoğulmuşların vaxtında qeydiyyata alınması, uşaqların qidalanmasının düzgün təşkil edilməsi, onların xüsusən ana südü ilə qidalandırılması muxtar respublikamızda uğurla həyata keçirilən səhiyyə islahatlarının tərkib hissələrindən biridir.*

Uşaqların idarəolunan yoluxucu xəstəliklərə qarşı aldığı peyvəndlərin ardıcıl icra olunması gələcək nəslin sağlam böyüməsində mühüm rol oynayır. Uşaqlara elektron sağlamlıq kartların verilməsinin əhəmiyyətinin izah edilməsində, uşaq və yeniyetmələrin zərərli vərdişlərdən, xüsusən siqaretə, spirtli içkilərə meyillilikdən uzaq böyümələri üçün valideynlərin maariflənməsində "Ailə sağlamlıq məktəbi"nin böyük rolu vardır.

Hazırda muxtar respublikanın səhiyyə müəssisələrində fəaliyyət göstərən belə məktəblərdə məşğələlər ardıcıl şəkildə davam etdirilir.

"Ailə sağlamlıq məktəbi"nin növbəti məşğələsi Ə.Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında keçirilmişdir. Məşğələni Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçi-pediatrı, Azərbaycan Respublikasının Əməkdar həkimi İbrahim Ağayev açaraq muxtar respublikada uşaqlara göstərilən dövlət qayğısından, onlara idarəolunan yoluxucu xəstəliklərə qarşı vurulan peyvəndlərin, verilən elektron sağlamlıq kartlarının əhəmiyyətindən danışmışdır.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası Poliklinika şöbəsinin müdiri Şəmsi Əsgərov uşaqlara idarəolunan yoluxucu xəstəliklərə qarşı Azərbaycan milli peyvənd təqviminə görə vurulan peyvəndlərin qrafikindən danışmışdır.

Həmin xəstəxananın Sanitariya maarifi kabinəsinin həkimi Aytən İbrahimova isə uşaqlara verilən ana südünün əvəzolunmaz qida kimi üstünlükləri, yenidoğulmuşlara düzgün qulluq göstərilməsi qaydaları barədə analara tibbi məsləhətlər vermişdir.

Xəstəxananın baş həkimi Rəhim Rəhimov belə məşğələlərin əhalinin tibbi maariflənməsində böyük rolu olduğunu qeyd etmişdir.

Məşğələdən sonra həm plan üzrə, həm də müəyyən səbəblərdən peyvəndlərdən imtina etmiş valideynlərin uşaqları yoxlanılmış, peyvəndlər icra olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Həmyerlilərimiz beynəlxalq turnirdən medallarla qayıdıblar

Ötən ayın son günlərində Rusiyanın Novorossiysk şəhərində Budo K-1 növü üzrə dünya kuboku uğrunda qitələrarası döyüş turnirinin Avropa-Asiya mərhələsinin döyüşləri keçirilib. "Qara dəniz kuboku-2015" adlanan turnirdə ölkəmizin şərəfini 7 idmançı qoruyub. Bu idmançıların üçü Naxçıvan Muxtar Respublikasının kikboksinqçiləri olub. 20-dən çox ölkə idmançısının mübarizə apardığı turnirdə hər üç idmançımız fəxri kürsüyə yüksəlməyi bacarıb. Belə ki, Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının idmançılarından Ruslan Musayev qızıl, Samiq Seyidzadə gümüş, Nail Hüseynov isə bürünc medal qazanıblar.

Sonda idmançılarımıza təşkilatçılar tərəfindən diplom, kubok, medal və hədiyyələr təqdim olunub.

## Basketbol çempionatı davam edir

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatında 7-ci turun oyunları keçirilib.*

"Naxçıvan" komandası bu tura kimi xal itkisi yaşamayan "Ordubad" komandasını qəbul edib. Gərgin idman mübarizəsi şəraitində keçən görüş "Naxçıvan" komandasının qələbəsi ilə yekunlaşıb – 76:45. Onlar kimi "Culfa" komandası da meydan amilindən maksimum yararlanıb. Bu dəfə culfalı basketbolçular "Babək" komandası qarşısında çətin anlar yaşasalar da, sonda 2 xalı aktivlərinə yaza biliblər – 63:40. "Lokomotiv" komandası turnir cədvəlinin autsayderi "Sədərək" komandasını sınağa çəkib və meydanı tam üstünlüklə tərk edib – 54:26. Ümumiyyətlə, 7-ci turu meydan sahibləri üçün uğurlu tur hesab etmək olar. Turun son görüşündə "Naxçıvan" Universitetinin komandası şərurlu həmkarlarını qəbul edib. Çətin keçən görüşdə tələbələr 11 xallıq fərqi sonadək qorumağı bacarıblar – 32:21.

| S/№ | Komanda | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan | 7 | 7 | 0 | 565-250 | 14 |
| 2. | Ordubad | 7 | 6 | 1 | 411-276 | 13 |
| 3. | Culfa | 7 | 5 | 2 | 397-316 | 12 |
| 4. | Lokomotiv | 7 | 3 | 4 | 281-321 | 10 |
| 5. | Babək | 7 | 3 | 4 | 314-314 | 10 |
| 6. | "Naxçıvan" Universiteti | 7 | 2 | 5 | 271-398 | 9 |
| 7. | Şərur | 7 | 2 | 5 | 193-339 | 9 |
| 8. | Sədərək | 7 | 0 | 7 | 241-459 | 7 |

✍ **Ceyhun MƏMMƏDOV**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər peşəsi üzrə kurs təşkil edir.

Tədrisin müddəti 2 aydır.

Muxtar respublikanın rayonları üzrə tələbat aşağıdakı kimidir:

| S/№ | Kəndin adı | Vakant yer |
|---|---|---|
| **Şərur rayonu üzrə** | | |
| 1. | Yuxarı Aralıq | 1 |
| 2. | Püsyan | 2 |
| 3. | Xanlıqlar | 2 |
| 4. | Danyeri | 1 |
| 5. | Diyadin | 1 |
| 6. | Şahbulaq | 1 |
| 7. | Zeyvə | 1 |
| 8. | Cəlilkənd | 1 |
| 9. | Kürkənd | 1 |
| 10. | Yuxarı Daşarx | 1 |
| **Cəmi:** | | **12** |
| **Babək rayonu üzrə** | | |
| 1. | Güznüt | 1 |
| 2. | Qahab | 2 |
| **Cəmi:** | | **3** |
| **Ordubad rayonu üzrə** | | |
| 1. | Parağa | 1 |
| 2. | Bist | 1 |
| 3. | Çənnəb | 1 |
| 4. | Xurs | 1 |
| 5. | Nəsirvaz | 1 |
| **Cəmi:** | | **5** |
| **Culfa rayonu üzrə** | | |
| 1. | Milax | 1 |
| 2. | Xanəgah | 1 |
| **Cəmi:** | | **2** |
| **Şahbuz rayonu üzrə** | | |
| 1. | Sələsüz | 1 |
| 2. | Badamlı | 1 |
| 3. | Nursu | 1 |
| 4. | Aşağı Qışlaq | 1 |
| 5. | Kolanı | 1 |
| 6. | Ayrınc | 1 |
| 7. | Qızıl Qışlaq | 1 |
| 8. | Biçənək | 1 |
| **Cəmi:** | | **8** |
| **Kəngərli rayonu üzrə** | | |
| 1. | Təzəkənd | 1 |
| 2. | Xok | 2 |
| 3. | Şahtaxtı | 1 |
| **Cəmi:** | | **4** |

Əqli və fiziki potensialları bərbər peşəsi üzrə çalışmağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də müraciət edə bilərlər. Kursu müvəffəqiyyətlə bitirənlər qeyd olunan kəndlərdə fəaliyyət göstərən xidmət mərkəzlərindəki bərbərxanalarda işlə təmin olunacaqlar.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2015-ci il iyul ayının 10-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər.

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***

## İkinci Kənd İnvestisiya Layihəsi əlavə maliyyələşmə ümumi tender elanı

İkinci Kənd İnvestisiya Layihəsi əlavə maliyyələşmə mərhələsi çərçivəsində Babək rayon Xəlilli icması tərəfindən müəyyən edilmiş prioritet ehtiyaclara əsaslanan "Elektrik sistemlərinin bərpası və genişləndirilməsi" infrastruktur layihələri həyata keçirilir.

Naxçıvan zonasının regional əməliyyatlar ofisi butipli layihələrin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Bununla bağlı Naxçıvan regional əməliyyatlar ofisinə aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki və insan resursları barədə məlumat*
* *Son 3 ildə infrastrukturtipli layihələrdə iş təcrübəsinin olması.*

Qeyd olunmuş sənədlər toplusunu 8 iyul 2015-ci il, saat $18^{00}$-ə kimi Naxçıvan zonasının regional əməliyyatlar ofisinə təqdim etmək lazımdır.

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi, 6***
***Əlaqə telefonu: (036) 545-13-17***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 509